
Hicran Hüseynova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

> "Ailədaxili münasibətlər cəmiyyətdaxili münasibətlərin güzgüsüdür. Ailədaxili problemləri vaxtında və uğurla həll edək ki, bu güzgü şəffaf və dayanıqlı olsun".
>
> Heydər Əliyev

# SAĞLAM AİLƏ, SAĞLAM UŞAQ

## SAĞLAM CƏMİYYƏTİN, UĞURLU ÖLKƏNİN TƏMƏLİDİR

**Başda möhtərəm cənab Prezident İlham Əliyev olmaqla, Azərbaycan hökumətinin həyata keçirdiyi dövlət siyasətində ailə, insan və onun rifahı prioritet məsələlərdəndir. Azərbaycanda bu yönümlü institutlardan olan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin də əsas məqsədi dövlət-ailə siyasətini möhkəmləndirmək, neqativ tendensiyalarla mübarizə aparmaq, yüksək mahiyyətli adət-ənənələrimizi yaşatmaqdır.**

**Müsahibimiz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovadır.**

***– Hicran xanım, tədbir caizsə, Sizin əmək obyektiniz insandır. Bu iş sizdən ən çox nəyi tələb edir?***

- Mən, öncə, ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu sahədəki nəcib və humanitar layihələrini qeyd etmək istərdim. Onun mədəni, elmi və folklor irsimizin qorunması və təbliği istiqamətində yorulmaz, kreativ fəaliyyəti bütün xalqımıza bəllidir. Bizim təşkilatımıza gəldikdə isə bir sıra dövlət qurumları kimi, bizim komitəmiz də insanlarla birbaşa ünsiyyətdə olur, onları dinləyir, birgə layihələr gerçəkləşdirir. Əlbəttə, bu, bizdən hədsiz həssaslıq, qayğı, onları diqqətlə dinləmək, eləcə də, mövcud vəziyyəti təhlil edərək düzgün nəticələr çıxarıb sərrast qərarlar verməyi tələb edir. Bu işdə hiss və emosiyalarla yanaşı rasional təfəkkür də çox vacibdir.

***- Ailə, uşaq, qadın problemlərinin doğru həlli üçün nələri vacib sayırsınız?***

- Bunlar hazırkı dövlət siyasətinin prioritet istiqamətlərindəndir və bu gün cəmiyyətimiz öz layiqli sosial-mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən fəal, güclü ailələrin formalaşması üçün çalışır, ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirir, bu sahədə hüquqi bazanın gücləndirilməsinə ciddi əhəmiyyət verir. Azərbaycan Respublikası BƏT-in "Kişi və qadın işçilər – ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli, BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "Uşaq hüquqları haqqında", "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" və digər Konvensiyalara qoşulmuşdur. Dövlət tərəfindən ratifikasiya edilmiş Konvensiyalara əsasən, daxili qanunvericilikdə mühüm islahatlar aparılmış, Ailə Məcəlləsi, "Ailə kəndli təsərrüfatı", "Gender bərabərliyinin təminatları", "Məişət zorakılığının qarşısının alınması", "Uşaq hüquqları", "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi", "Valideynlərini itirmiş



və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması", "Uşaqların icbari dispanserizasiyası" və digər qanunlar qəbul edilmişdir. Ailə və Cinayət Məcəllələrində dəyişikliklər və əlavələr edilmişdir. Ailə Məcəlləsində nikah yaşı qızlar üçün 18-ə qaldırılmış, Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayan qızları nikaha məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyən olunmuşdur. Ailəyə, qadına və uşağa yönəlmiş tibbi xidmət infrastrukturunun, reproduktiv sağlamlığın qorunması sisteminin daha da təkmilləşdirilməsi üçün "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014-2020-ci illər üçün) Dövlət Proqramı"nın təsdiq edilməsi, tərəflərin nikahdan əvvəl icbari olaraq tibbi müayinədən keçməsi qüvvəyə minmişdir. Ailə institutnun daha da möhkəmləndirilməsi, vətəndaşlarımızın azadlıq və hüquqlarının müdafiəsi, firavan yaşaması üçün Dövlət Proqramları, Tədbirlər Planları ("Regionların sosial-iqtisadi inkişafı", "Yoxsulluğun azaldılması və davamlı inkişaf", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi" və s.) qəbul edilmişdir.

> Ailə hər bir cəmiyyətdə ilk və vacib sosial institutdur. Ailədə sağlam mühit varsa, orada qadın da, uşaq da özünü xoşbəxt hiss edir. Buna görə də ailə quran cütlüklər çox məsuliyyətli olmalıdırlar.

Komitənin nəzdində 11 regional Uşaq və Ailələrə Dəstək Mərkəzi fəaliyyət göstərir, eyni zamanda, mütəmadi olaraq vətəndaşları qəbul edirik. Onların problemlərini dinlədikdə, daha çox insan məsuliyyətsitsizlik və səhlənkarlıqlar ilə rastlaşırıq. Bu da onu göstərir ki, nə qədər təbliğat, maarifləndirmə işi aparılıb, müxtəlif xidmətlər göstərilsə də, yenə azdır. Biz fəaliyyət və söhbətlər zamanı çalışırıq ki, insanlar özləri dərk edib anlasınlar ki, onların hər bir davranış və hərəkətinin nəticəsi, həm də ailə üzvlərinə, nəticə etibarı ilə isə cəmiyyətə təsir edir.

Ailə institutu dinamikdir. Zamana uyğun olaraq onun bu və ya digər funksiyalarına yeni elementlər daxil olur. Nümunə üçün, elm və texnologiyanın inkişafının ailəyə, ailə üzvlərinin roluna təsirini göstərə bilərik. Bu təsir həm müsbət, həm də mənfi ola bilər. Biz daha çox bu barədə düşünməli, bu qiymətli sərvəti yad təsirlərdən qorumaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək zənginləşdirməli, gənc nəsli daha sağlam tərbiyələndirməliyik.

Biz həmişə Azərbaycan ailələrinin möhkəmliyi ilə fəxr etmişik. Bu, əsasən, milli mentalitetimizdən irəli gəlir. Ailə üzvləri arasında səmimi, mədəni münasibət, böyük-kiçik yerinin bilinməsi, valideyn-övlad münasibətlərinin düzgün qurulması bizim ailələrə xas olan keyfiyyətlərdir. Əgər ölkəmizdə yüzlərlə, minlərlə insan qurduqları ailələrin "briliyant", "qızıl", "gümüş" yubleylərini keçirirlərsə, bu o deməkdir ki, Azərbaycanda ailə modeli qorunur və nəsildən-nəslə yaşadılır.

***- Ailədə, sülh və dözümlülük mədəniyyəti ilə bağlı fikirləriniz maraqlı olardı...***

- Azərbaycan xalqının mentalitetində yüksək qonaqpərvərlik, dostluq və əmanətə sədaqət, dürüstlük, valideynə, böyüyə hörmət, tolerantlıq kimi zəngin və çoxşaxəli xüsusiyyətlər mövcuddur. Digər tərəfdən, Azərbaycan xalqının çox gözəl və zəngin ailə ənənələri var. Üstəlik Azərbaycan Respublikasının ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zərurətini, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasını, hər bir ailə üzvünün ailə qarşısında məsuliyyətini, onların hüquqlarının maneəsiz surətdə həyata keçirilməsini müəyyən edir. Şərqlə Qərbin qovuşduğu coğrafi mövqedə yerləşən və Avropaya inteqrasiya edən bir ölkə olsaq da, bizdə klassik ailə modeli deformasiyaya uğramır. Əksinə, bəzi ölkələrdəki ailə ənənələrinin zəifliyi bir sıra sosial-psixoloji fəsadların fonunda bizim klassik ailə modeli daha qabarıq şəkildə özünü büruzə verir. Cəmiyyətdə deqradasiyanı sürətləndirən bütün bu nəcib keyfiyyətlər xalqımızın qan yaddaşından irəli gələn əxlaq normalarıdır.

***- Hicran xanım, ümumiyyətlə komitə olaraq ailə dəyərlərinin qorunub gələcək nəsillərə ötürülməsi, gənclərin ailə həyatına hazırlığı, çoxuşaqlı ailələrin dövlət, hökumət və cəmiyyətə güvəni, sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası...***

- Dediyim kimi, ailə İnstitutunun möhkəmləndirilməsi, reproduktiv sağlamlığın qorunması, ailə dəyərlərinin nəsildən-nəslə ötürülməsi bizim əsas məqsədlərimizdəndir. Bunlara nail olmaq üçün məktəblərdən tutmuş, hərbi hissələrə qədər ailə münasibətlərinin formalaşması, yeni keyfiyyətlərin müsbət və mənfi təsirləri haqda seminarlar, yaşlı nəsillə gənc nəslin dialoqunu, gənc ailələrlə təcrübəli ailələr arasında disputlar, ailə öhdə-



likləri olan işçilərin hüquqlarının qorunması və bu sahədə maarifləndirmə işlərinin daha da gücləndirilməsi üçün müxtəlif seminar və konfranslar keçiririk. Maarifləndirici layihələrimizdən olan "Yaşlı nəslin təcrübəsindən faydalanaq", "Sağlam həyat naminə erkən nikaha yox!", "Sağlam ailə - sağlam cəmiyyətin təməlidir", "Ailə, Məktəb, Cəmiyyət", " Müasir cəmiyyətdə ailənin yeri və rolu" kimi tədbirlərimizi, xüsusilə qeyd etmək istərdim. Bu layihələrimiz respublikanın bütün regionlarını, hətta ən ucqar kəndlərini belə əhatə edir. Ümumiyyətlə, bu gün ailə institutunun cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi və sosial proseslərə pozitiv təsirinin təmin edilməsi bütün dünyada aktual problemdir. Təsadüfi deyil ki, dünya ictimaiyyəti hər il mayın 15-də Ailə Gününü qeyd edir.

> "Beynəlxalq Ailə Günü"nün qeyd olunması tarixi 1993-cü ildən başlayır. Bu tarix BMT-nin Baş Assambleyasının 20 sentyabr 1993-cü il tarixli qətnaməsinə müvafiq olaraq həyata keçirilir. Ailə bayramı xalqımızın ən sevimli bayramlarından birinə çevrilib. Dünyada 1994-cü ildən qeyd olunan bu ənənəyə Azərbaycan 2008-ci ildən qoşulub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Ailə Bayramı hər il müxtəlif bölgələrdə təşkil olunur. 100-dən çox nümunəvi ailənin müəyyənləşdirilməsi ilə Azərbaycanın bütün rayonlarından ailə iştirak edir. Ölkəmizin əksər rayonlarından bu tədbirə toplaşmış nümunəvi ailələr həm də müasir Azərbaycan cəmiyyətinin yüksək inkişaf səviyyəsinin təcəssümüdür. İndiyədək Şamaxı, Qax, Xaçmaz, İsmayıllı, Abşeron rayonlarında, Lənkəran, Şəki şəhərlərində təşkil edilmiş bayramların növbətisi. Bu ilki bayram isə Şəmkir rayonunda qeyd olunacaq. Ənənə halını almış bayramlarda ailələr müxtəlif nominasiyalar üzrə ("Bacarıqlı əllər", "Milli mətbəx", "Yaradıcı ailə", "Nümunəvi ailə") çıxış edir. Bayramlarda müxtəlif sərgilərlə tanışlıq, bölgələrin milli mətbəxini əks etdirən xörəklərin və əl işlərinin nümayişi, ailələr arasında müxtəlif əyləncəli və intellektual oyunlar da, həyata keçirilir. Ailə Bayramının ən sevilən hissəsinə xalqımızın müxtəlif toy adət-ənənələrinin nümayişi, bir ailənin "brilliant toyu", milliliyi əks etdirən xınayaxdı kimi mərasimlər və s. daxildir. Qeyd edim ki, ölkəmizdə xüsusi istedadı, bədii, musiqi yaradıcılığı, yüksək idman göstəriciləri, digər qabiliyyət və maraqları ilə seçilən ailələrimiz çoxdur. Çalışırıq ki, hər il Beynəlxalq Ailə günü ərəfəsində həmin ailələrin təcrübəsini hamıya nümunə kimi göstərək.

> Ailə dəyərlərinin qorunub saxlanılması sahəsində görülən maarifləndirmə işlərinin mühüm bir hissəsi kimi 2009-cu ildən başlayaraq "Azərbaycan ailəsi" qısametrajlı film festivalı da keçirilir. Artıq 7 ildir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Azərbaycan ailəsi" adlı film festivalı uğurla davam etdirilir.

Film festivalının keçirilməsinin əsas məqsədi kinematoqraf imkanlarından istifadə etməklə ailə dəyərlərinin, milli-mənəvi dəyərlərin gənclər arasında təbliği, cəmiyyətdə bu istiqamətdə mövcud olan problemlərin işıqlandırılaraq həlli yollarının axtarılması və ailə institutunun inkişafına nail olunmasıdır. Bu filmlərdə, eyni zamanda, digər vacib problemlər – erkən nikah, uşaqların, xüsusilə qızların təhsildən yayınması, insan alveri, sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə reinteqrasiyası da öz əksini tapır. Keçən müddət ərzində təşkilat komitəsinə 13-ü xarici rejissorlar tərəfindən olmaqla 200-ə yaxın film təqdim edilib. 2014-cü ildən etibarən festival çərçivəsində "Həyatdan şəkilə" adlı foto müsabiqə də həyata keçirilir.

Ailələrin hərtərəfli inkişafının təmin edilməsi üçün cənab Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan - Gələcəyə Baxış 2020: İnkişaf Konsepsiyası"nda nəzərdə tutulan "Azərbaycan Ailəsi Strategiyası " layihəsinin ilkin variantı dövlət və QHT nümayəndələrinin iştirakı ilə keçirilib. Artıq bizim kifayət qədər mütəxəssislərimiz var. Onlar öz təcrübələri ilə ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi və digər istiqamətlərdə beynəlxalq səviyyədə bölüşürlər.

> Nümunə üçün qeyd etmək istərdim ki, erkən nikahlar, onların fəsadları, qadın hüquqları ilə bağlı Azərbaycan təcrübəsi artıq bir neçə ölkədə öyrənilir. Eyni zamanda, Böyük Britaniyada "Beynəlxalq Ailə Günü"nün qeyd olunmasının 20 illiyi ilə bağlı kitabda "Azərbaycan Ailə modeli" haqqında geniş məqalə çap olunub. Üzv ölkələrin sırasında cəmi 6 uğurlu ailə modeli seçilib ki, onlardan biri də Azərbaycan ailəsidir!

Əlbəttə, fəxr edirik ki, bizim ailə modelimiz dünyanın ən yaxşı ailə nümunələrindən biri sayılır. Bu, Azərbaycan dövlətinin ailə, qadın və uşaq problemləri istiqamətində apardığı düzgün siyasətin göstəricisidir. •

Səminə Hidayətqızı